# QURAN: HƏQİQƏTLƏR VƏ İDDİALAR

***Fariz ƏHMƏD,***
*Azərbaycan Respublikası Dövlət Neft Şirkəti*
*Dövlət Neft-Qaz Elmi Tədqiqat İnstitutu,*
*"Qum-su təzahürü ilə mübarizə" şöbəsinin baş elmi işçisi,*
*farizahmed@mail.ru*

***AÇAR SÖZLƏR:*** *empirik elmlər, müsəlman dünyası, oriyentalizm, Quran, surə, islamofobiya.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *эмпирические науки, мусульманский мир, востоковедение, Коран, сура, исламофобия.*
***KEYWORDS:*** *empirical sciences, Muslim world, orientalism, Quran, sura, Islamophobia.*

"Qaranlıq orta əsrlər"dən sonra Avropanın oyanışı bəşər tarixinin parlaq mərhələlərindən birini təşkil edir. O, Avropaya tənqidi və intellektual diskussiya, dialektika və müxtəlif fəlsəfi məktəblərdə düşünmə qabiliyyətini gətirmişdir. Bunun çox hissəsi müsəlman dünyasının intellektual tarixindən mənimsənilmişdir. Belə ki, İran, Misir, Yunanıstan və digər qədim ölkələrə baş çəkən müsəlmanlar kitabxanaları viran qoymamış, qiymətli kitabları məhv etməmiş, əksinə, ərəb dilinə tərcümələr edərək keçmiş dövrlərin alimlərinin elmindən faydalanmağa çalışmışlar.

Fransız tarixçisi Andre Serviyenin fikrincə, İslam məşəl deyil, əksinə, alovu söndürəndir. O deyirdi ki, bu din öz xalqından istifadə etmək istəyən barbarların beyninin məhsuludur və heç vaxt sivil dünyaya uyğunlaşa bilməyib, bundan sonra da uyğunlaşa bilməyəcək. İslamın hökm sürdüyü yerdə cəmiyyətin inkişaf və təkamül impulsu məhv olur [1].

Şotland tarixçisi, Məhəmməd peyğəmbər (s) və erkən xilafət dövrünün araşdırmaçısı Vilyam Mür isə hesab edirdi ki, Məhəmmədin qılıncı ilə Quran mədəniyyət, azadlıq və həqiqətin dünyada misli görünməmiş ən ölümcül düşmənidir [2].

İntellektual maariflənmə Avropa imperializmi və müsəlman dünyasının müstəmləkəsi dövrünə təsadüf etdi. Böyük Britaniya və Fransa kimi Avropa ölkələri tədricən müsəlman dünyasını bölməklə özlərinə tabe etdilər. Beləliklə, intellektual maarifçilik müsəlman dünyasının imperialistlər tərəfindən ələ keçirilməsi ilə yanaşı, avropalıları İslama, onun tarixinə, inancına və elminə tənqidi tədqiq mövqeyindən yanaşmağa vadar etdi. Bu hərəkat oriyentalizm (şərqşünaslıq) kimi tanındı. Onun əsas çatışmayan cəhətlərindən biri İslam Peyğəmbərinin (s) dövründən bəri müsəlman alimlərinin yazdığı çoxəsrlik elmi əsərlərə məhəl qoymadan Avropa terminləri ilə İslam tarixini təhlil etməsi idi. Şərqşünaslığın ən riskli cəhətlərindən biri də Quranın mənşəyinə dair Avropa araşdırması idi.

Tarixən Avropa, xüsusən də Qərb şərqşünaslığı İslamı və müsəlmanları düşmən kimi qəbul edirdi. Buna görə də İslamın özü və fərdi mövqeləri dostluqdan uzaq nöqteyi- nəzərdən keçirilirdi. Bəzi şərhlər qismən təsdiqini tapdıqda bu bir məlumat rezonansına səbəb olur və

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

kütlələrin şüurunda "vəhşi, geridəqalmış müsəlmanlar" məfhumu yerləşdirilirdi. J.Buffonun sözlərinə görə, heç bir şey böyük ad tərəfindən dəstəklənən səhv fikir qədər təsirli ola bilməz.

Bu gün də İslam dininə münasibətdə ağır böhran yaşanılır. Bu böhran İslamı müasir həyatın həqiqətlərindən biri kimi qəbul etməməkdən və elmi dəlillərin manipulyasiyasından doğur. Yaşanılan böhran cəmiyyətləri çaşqınlıq içində qoymuşdur. Elə bir fikir formalaşmışdır ki, İslam artıq köhnəlmiş və məqsədləri aktuallığını itirmişdir. Çünki Qərb ölkələri müstəmləkə dövründə elmi və bədii ədəbiyyat yolu ilə qeyri-sivil, geridə qalmış və passiv İslam Şərqi haqqında ideyalar formalaşdırmışdılar. Bu təsəvvürlərdə "icad edilmiş İslam" müsəlmanlarla Qərb arasındakı böhranın və qarşıdurmanın nəticəsidir [3; 4; 5].

Yəhudilərin Tövratının və Xristianların Əhdi-Cədidinin əsrlər boyu dəyişdiyini qəbul edən Avropa alimləri Quranla da eyni hadisənin baş verməli olduğuna inanmışlar. Onların Quranın həqiqi olmadığını və dəyişdirildiyini sübut etməyə çalışmaları şübhəli niyyətlərə əsaslanan tədqiqatlara yol açmışdır.

Ona görə də bəzi insanlar Quranın Uca Yaradan tərəfindən vəhy yolu ilə Peyğəmbərə (s) göndərildiyinə şübhə ilə yanaşırlar. Onların fikrincə, Quran insan təxəyyülünün məhsuludur. Ancaq Allah-Təala onlara bu fikirlərini təsdiq etmələri üçün Qurandakılara oxşar ən azı bir surə hazırlamağı təklif edir: **"Əgər bəndəmizə (Məhəmmədə) nazil etdiyimizə (Qurana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin və əgər ("bu, bəşər kəlamıdır" sözünü) doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (bütlərinizi, şair və alimlərinizi bu işdə köməyə) çağırın!"** [6, "Bəqərə", 23]

Bu ayə Allahın bütün bəşəriyyətə çağırışıdır. Müsəlmanlar əmindirlər ki, heç kim heç vaxt Qurana bir surə belə əlavə edə bilməz. Bu Kitabı tənqidi oxlar qorxutmur və heç bir sərt, qərəzli analitik testlər onun üçün dəhşətli deyil.

Bəzən şərqşünaslar Qurana bənzər bir şey tərtib etməyin mümkünsüzlüyünə dair ayənin həlledici dəlil ola bilməyəcəyini iddia edirlər. Tənqidçilər deyirlər ki, "ayə özü subyektivlik damğası daşıyır və hər kəs özünəməxsus olduğunu iddia edərək bir kitab yaza bilər". İlahiyyatçıların tənqidçilərə bununla bağlı cavabı belədir ki, insan fikrinin zəifliyi, daim dəyişkənliyi zamanın sınağından keçmir. Bəşəriyyətin insanların fikirlərinə söykənməsi Rəbbin insanlara Quranın unikallığı haqqında ayələr göndərməsi ehtimalından daha azdır. Dünya taleyin sonsuz dönüşündən ibarətdir. Bu gün kimsə şöhrət və əzəmət zirvəsindədir, sabah isə qul kimi öz pyedestalının ətəyindədir. Həmin şey insanın yaradıcılığında da baş verir. Bu gün dahiyanə əsər yaradan müəllif oxucu kütləsi tərəfindən göylərə ucaldılır, sabah isə unudulur və kütlə rəqibin adını haraylayır.

Böyük Britaniya musiqiçisi Con Lennon şöhrətin zirvəsində ikən müsahibələrinin birində özlərinin İsa peyğəmbərdən daha məşhur olduqlarını söyləmişdi. Bu, əbədi davam edəcək dini izzətə bir iddia deyildimi? Ancaq gəlin baxaq, 30 ildən sonra nə baş verdi? "Bitlz" qrupunun populyarlığı yüzlərlə dəfə azalmışdır. Ancaq dünyada İsa peyğəmbərin adını eşitməyən adam yoxdur.

Tanınmış bir fərziyyə bu və ya digər formada dünyanın əksər xalqlarının əfsanələrində

mövcuddur. Bu fərziyyə "mütləq gücə və məhdudiyyətsiz maliyyə mənbəyinə sahib olmaq istəyənlər sadəcə öz dini təlimlərini irəli sürməlidir" prinsipinə əsaslanır. Bu mif həqiqətdə dəfələrlə öz təsdiqini tapmışdır. Buddanın təlimlərini və Karl Marksın iqtisadi nəzəriyyəsini xatırlatmaq kifayətdir. Budda heç vaxt peyğəmbər olduğunu elan etməmiş və ilahi mahiyyətini açıqlamamışdır. Ancaq insanlar onu tanrı elan etdilər və Buddizm dünya dininə çevrildi. K.Marksın iqtisadi nəzəriyyəsi isə heç bir şəkildə totalitarizmin, bütün xalqlara qarşı zorakılığın və iqtisadi doktrinanın yalançı dinə çevrilməsinin zəruriliyini bəyan etmirdi. Buna baxmayaraq, keçmiş sosialist ölkələrində onun ideyalarının həyata keçirilməsi qanlı repressiya və zorakılıqlara səbəb oldu, marksizmdən öz məqsədləri üçün istifadə edənlər məhdudiyyətsiz güc və maliyyə imkanlarına sahib oldular.

Din yalnız peyğəmbərinin ölümündən sonra yaşadıqda sağ qala bilər: doktrinanın ardıcılları dünyadakı dağıdıcı çevrilişlərdən uğurla keçə biləcək qədər güclü və nüfuzlu doktrina almalıdırlar. Beləliklə, uydurma dinlər məhv olmağa məhkumdur. İslam isə bütün dağıdıcı çevrilişlərdən keçdi, lakin yox olmadı. Niyə? Cavab yalnız bir ola bilər: insanlar tərəfindən qəbul edilən bu təlim Allahın Özündən alınmışdır.

Düşünənlər üçün inandırıcı və təkzibedilməz dəlil: **"Şübhəsiz ki, bunda qəlb (ağıl) sahibi, yaxud (moizə edildiyi zaman bütün varlığı ilə) hazır olub (ona cani-dildən) qulaq asan kimsə üçün öyüd-nəsihət vardır!"** [6, "Qaf", 37]

Bu da deməyə əsas verir ki, Quran orijinallığını qorumaq üçün ilk dövrlərdə kitablarda (kitablar yandırıla bilər) deyil, məhz hafiz insanların yaddaşlarında qorunub saxlanılmış bənzərsiz dini irsdir.

Əksər şərqşünasların fikri subyektiv qavrayışdan başqa bir şey deyildir. Qədim Yunanıstan filosoflarının və antik dövr şairlərinin mətnləri əsasında Quranı qiymətləndirmək olmaz. Məsələn, Homer heç vaxt əsərlərinin bənzərsizliyini və Rəbbin ona ilham verdiyini dilə gətirməmişdir. Homerin əsərlərinin böyüklüyü yunanların və sonralar Roma imperiyasının gücü ilə bağlıdır.

Dünyada yayılmış islamofobiya meyilləri Quranı daha da məşhurlaşdırdı və bu gün Quran, demək olar ki, bütün dünya dillərinə tərcümə olunmuşdur. Kitab olmasına baxmayaraq, varlığın bütün mahiyyəti onda mövcuddur. Hər nəsil Quranda özünə lazım olanı tapır.

Quranda bütün dil çalarlarının böyük əhəmiyyətə malik olduğu bildirilmişdir. Bir söz bütöv bir tərif, hətta qanun (hökm) ola bilər. Özlərində dərin məna daşıyan ayələr haqqında nə deyə bilərik? Dünyanın hər yerindən Quran təfsirçiləri surələrin izahı üzərində işləyirlər. "Mülk" surəsinin 10-cu ayəsində buyurulur: **"Onlar: "Əgər biz (peyğəmbərlərin öyüd-nəsihətinə) qulaq asıb ağlımızı başımıza yığsaydıq, cəhənnəm əhli içində olmazdıq!"** – deyəcək" [6, "Mülk", 10].

Ağıl iradə və düşüncə azadlığı deməkdir. Halbuki insanlar bəzən ehtiraslarının diktəsi ilə hərəkət edirlər. **"O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!"** [6, "Zumər", 18]. Beləliklə, Qurana görə, ağıl Quran və Sünnənin düzgünlüyünə inancdır.

Allah Öz kitabı vasitəsilə insanlarla ünsiyyət qurur, onları doğru yola yönəldir. Ancaq qeyd etməliyik ki, Rəbbimiz tərəfindən bizə verilən bu Kitab hələ tam şəkildə öyrənilməmişdir və o hələ açıqlanmamış bir çox sirrə, heyrətamiz müqəddəs mənalara malikdir. Quranda hər hansı kəlmənin metafizik məna daşımasına dair nümunələr çoxdur. Bu həqiqət "Ali İmran" surəsinin 7-ci ayəsində də öz təsdiqini tapmışdır: **"(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər"** [6, "Ali İmran", 7 ].

Qurani-Kərim tayı-bənzəri olmayan kitabdır. Məhəmməd Peyğəmbər (s) bunu bu şəkildə dilə gətirmişdir: "Quran kəlmələrinin başqa sözlərdən üstünlüyü Allahın başqa varlıqlardan üstünlüyü kimidir". Allahdan başqa heç kim Qurana bənzər kitab yaratmağa qadir deyil. Qurani-Kərimin bu bənzərsizlik və təkrarsızlığı "ecaz" adlanır. Ərəb dilindən tərcümədə ecaz "başqalarını aciz qoymaq" mənasını verir.

Beləliklə, müsəlmanlar üçün Quran Məhəmməd peyğəmbərin (s) ən böyük möcüzəsidir. İslam alimləri, ilahiyyatçılar və filoloqlar Quranın möcüzəvi təbiətini yekdilliklə qəbul edirlər. Quranın ayələri üslub baxımından misilsizdir, inanılmaz dərəcədə dərin, lakin eyni zamanda adi insanlar tərəfindən başa düşüləndir. Allah-Təala buyurur: **"Bu (Quran) da mübarək (xeyir-bərəkəti daim, faydası çox), özündən əvvəlkiləri təsdiq edən bir kitabdır..."** [6, "Ənam", 92].

## ƏDƏBİYYAT


1. Servier A. Islam and the Psychology of the Musulman. London: Chapman Hall Ltd., 1924, 144 p.
2. Уильям Мьюр. *Жизнь Магомета и история ислама, к эпохе Хиджры: с вводными главами по первоисточникам для биографии Магомета, Том 2*. Смит, Элдер и Ко Стр. 152
3. Said E. Impossible Histories: Why the Many Islam's cannot be Simplified Electronic resource. 2002.
4. Саид Э. Ориентализм. Западные концепции Востока. СПб.: Русский Міръ, 2006.
5. Tibawi A.L. English-Speaking Orientalists: A Critique of Their Approach to Islam and Arab Nationalism. Pt. 1 // Islamic Quarterly, 1964, Vol. 8, № 1, p. 66.
6. Qurani-Kərim (Tərcümə edənlər akad. Z.M.Bünyadov və akad. V.M.Məmmədəliyev). Bakı: 2017

Фариз Ахмед

## КОРАН: ИСТИНЫ И ПРЕТЕНЗИИ

### РЕЗЮМЕ

Интеллектуальное просвещение в сочетании с завоеванием мусульманского мира империалистами побудило европейцев более критически подходить к изучению Ислама, его истории, веры и науки. Но одним из главных недостатков востоковедения был анализ истории ислама с использованием европейских терминов, игнорируя многовековые научные труды, написанные великими мусульманскими интеллектуалами со времён пророка Мухаммеда (мир ему и благословение). Одним из наиболее рискованных аспектов востоковедения было европейское исследование происхождения Корана. Исламофобия, которая распространилась во многих частях мира, сделала Коран еще более узнаваемым, и сегодня Коран переведен почти на все языки мира.

Fariz Ahmed

## THE QURAN: TRUTHS AND CLAIMS

### SUMMARY

Intellectual enlightenment, combined with the conquest of the Muslim world by the imperialists, has led Europeans to be more critical in terms of the study of Islam, its history, faith and science. However, one of the main shortcomings of oriental studies was the analysis of Islamic history using European terms, ignoring centuries-old scholarly works written by the great Muslim intellectuals since the time of the Prophet (peace and blessings of Allah be upon him). One of the most risky aspects of oriental studies was the European study of the origin of the Quran. Islamophobia, which has spread in many parts of the world, has made Quran even more popular, and today Quran has been translated into almost all languages of the world.